# Zəngəzur dəhlizinin açılması zaman məsələsidir

**_Azərbaycan İkinci Qarabağ müharibəsində parlaq qələbə qazanaraq, regionda tarixi ədaləti bərpa etmişdir. Bu qələbə Cənubi Qafqaz regionunda geosiyasi, geoiqtisadi şəraiti əsaslı surətdə dəyişib, bölgədə əməkdaşlıq mühiti üçün əlverişli şərait yaradıb._**



Yeni reallıqlar fonunda Zəngəzur dəhlizinin açılması son dərəcə vacibdir. Bu dəhlizin açılması isə zaman məsələsidir. Ermənistan düşmənçilik səhifəsini arxada qoyub region dövlətləri, o cümlədən, Azərbaycan və Türkiyə ilə sıx əməkdaşlıq etməyə çalışmalıdır. Bu həm də erməni xalqının xeyrinədir.

Xatırladaq ki, Zəngəzur dəhlizinin yaradılması Azərbaycan, Rusiya, Ermənistan liderlərinin 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatında öz əksini tapıb. Bundan əlavə, 2021-ci il yanvarın 11-də imzalanmış üçtərəfli sənəddə də Zəngəzur dəhlizinin açılması və istifadəyə verilməsi təsbit edilib.

Bütün bunlara baxmayaraq, Ermənistanın baş naziri Nikol Paşinyan bir müddət əvvəl "Əl Cəzirə" telekanalına müsahibəsində iddia edib ki, Zəngəzur dəhlizindən heç bir söhbət getmir və 10 noyabr tarixli üçtərəfli Bəyanatda yalnız Laçın dəhlizindən bəhs edilir. Halbuki həmin bəyanatın 9-cu bəndində qeyd olunur: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidməti həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək".

Bəli, bu gün siyasətlə az-çox dərəcədə məşğul olan hər kəsə gün kimi bəllidir ki, bəyanatda qeyd olunan yeni nəqliyyat kommunikasiyaları Zəngəzur dəhlizini də özündə ehtiva edir və Ermənistan rəsmi şəkildə üzərinə götürdüyü öhdəliyə müvafiq olaraq sözügedən dəhlizin açılmasını təmin etməlidir.

Bir çox nüfuzlu siyasi ekspert qeyd edirlər ki, Ermənistan nəzərə almalıdır ki, Azərbaycan 10 noyabr Bəyanatına uyğun olaraq, Ermənistanla Qarabağ erməniləri arasında Laçın dəhlizi vasitəsilə maneəsiz əlaqənin təmin edilməsi üçün şərait yaradıb. Laçın dəhlizi üzərində suverenlik beynəlxalq sənədlərdə təsbit olunduğu və 10 noyabr Bəyanatında bir daha təsdiqləndiyi kimi, Azərbaycanın yurisdiksiyasındadır. İndi Ermənistan Zəngəzur dəhlizi ilə bağlı öhdəliyini nəzərdə tutulan qaydada icra etməsə, onda Azərbaycan Laçın dəhlizini bağlamağa məcbur olacaq. Çünki Azərbaycan dəhlizlərlə bağlı belə disbalansın mövcudluğuna dözmək niyyətində deyil.

Rəsmi Bakı dəfələrlə ən yüksək səviyyədə Zəngəzur dəhlizinin, kommunikasiyaların açılmasının Ermənistan tərəfindən ləngidilməsi ilə bağlı dünya ictimaiyyətinə xəbərdar edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Qlobal dünya nizamına təhdidlər" mövzusunda IX Qlobal Bakı Forumunun açılış mərasimində çıxışı zamanı bu məsələ ilə bağlı bildirib: "Ermənistanın kapitulyasiya aktını imzalamasından ötən bir il yarım ərzində Naxçıvana gediş-gəlişin açılmaması üçtərəfli Bəyanatın müvafiq müddəasının pozulmasıdır. Biz kommunikasiyaların, Azərbaycan üçün Naxçıvan Muxtar Respublikası ilə əlaqənin açılması ilə bağlı Ermənistandan 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanata riayət edəcəyini gözləyirik. Təəssüf ki, Ermənistanın kapitulyasiya aktını imzalamasının üzərindən artıq bir il yarım keçir, amma bu vaxtadək gediş-gəliş yoxdur. Bu, qəbuledilməzdir. İlk növbədə, bu, Ermənistan tərəfindən üçtərəfli Bəyanatın müddəasının pozulmasıdır. Bu, həmçinin, regionda disbalans yaradır, çünki eyni bəyanata əsasən, Azərbaycan Ermənistandan erməni əhalinin yaşadığı Azərbaycanın Qarabağ regionuna maneəsiz gediş-gəlişi öhdəsinə götürüb. Bir il yarımdır ki, Ermənistan Laçın yolunu bu maneəsiz əlaqə üçün istifadə edir. Lakin azərbaycanlılar bizi Naxçıvanla birləşdirəcək Zəngəzur dəhlizindən, Ermənistandan keçən yoldan istifadə edə bilmirlər. Bu, ədalətli deyil və biz bununla razılaşmayacağıq".

Azərbaycanın mövqeyi qəti və prinsipial olduğu qədər, ədalətli və konstruktivdir. Prezident İlham Əliyevin bu xəbərdarlığı həm də o anlama gəlir ki, Ermənistan Zəngəzur dəhlizi ilə bağlı öhdəliklərini pozmağa davam edərsə, onda bu ölkə, eləcə də Qarabağda Rusiya sülhməramlı qüvvələrinin nəzarət etdiyi ərazilərdə qalan ermənilər Laçın dəhlizinə həsrət qalacaqlar. Bunun hansı nəticələrə gətirib çıxaracağını təsəvvür etmək isə o qədər çətin deyil.

Burada bir məqamı da xüsusi vurğulamaq lazımdır. Azərbaycanın yanaşması həm də bundan ibarətdir ki, Zəngəzur dəhlizinin açılması ilə bağlı öhdəliklərin yerinə yetirilməsi regionda sülh və əmin-amanlığın bərqərar olmasının təməl sütunudur. Prezident İlham Əliyev yuxarıda qeyd etdiyimiz forumun açılış mərasimində çıxışı zamanı xüsusi olaraq vurğulayıb ki, Zəngəzur dəhlizinin açılması ilə bağlı ən tez qərar regionda gələcək sülhün fundamental elementlərindən biridir: "Əgər bizə bu gediş-gəliş verilməsə, sülhdən danışmaq çox çətin olacaq və Azərbaycanın Ermənistanla normal birgəyaşayış, normal qonşuluğa yönəlmiş bütün səyləri boşa çıxacaq. Bu, bir daha vacib məsələdir və Azərbaycanın bunu tələb etmək hüququ var. Ermənistan hökuməti müvafiq bəyanatı imzalayıb. İkincisi, Azərbaycan müharibədə qalib gəlib və işğaldan əziyyət çəkən ölkə kimi bizim tələb etməyə mənəvi haqqımız var".

Tanınmış siyasi təhlilçi Elçin Mirzəbəyli hesab edir ki, Zəngəzur dəhlizinin açılması təkcə Azərbaycanın yox, əslində, dünya ictimaiyyətinin də tələbidir. Çünki o, təkcə Cənubi Qafqazda yox, bütün Avrasiyada böyük əhəmiyyətə malik yeni kommunikasiya xəttidir. Bu mənada Ermənistanın dəhlizlə bağlı müqavimət cəhdləri əbəsdir və Azərbaycan sonda istəyinə nail olacaq.

Nəzərə almaq lazımdır ki, Zəngəzur dəhlizi regionda sülhün təməl sütunlarından biri olmaqla yanaşı, bölgə dövlətləri arasında iqtisadi, ticarət əlaqələrini inkişaf etdirmək, Ermənistanın özünün 30 ilə yaxın davam edən təcrid vəziyyətindən yaxa qurtarmasında mühüm rol oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirməklə yanaşı, Ermənistan üçün əlavə imkanlar yaradacaq. Bu gün olduqca ağır sosial-iqtisadi durumda olan Ermənistan üçün olduqca vacibdir. Məhz bu səbəbdən əngəl yaratmaq əvəzinə, Zəngəzur dəhlizinin mümkün qədər tez istifadəyə verilməsində Ermənistan daha çox maraqlı olmalıdır.

Bu gün Azərbaycan dövləti regionda sülh, təhlükəsizlik və tərəqqinin lokomotivi rolunda çıxış edir. Dünya birliyi bunu görür, müşahidə edir və rəsmi Bakının konstruktiv və humanist siyasətini təqdir edir. Dünyanın güc və siyasi mərkəzləri bu məsələdə Azərbaycanı birmənalı olaraq dəstəkləyir.

Sonda bir daha vurğulamaq istərdik ki, Azərbaycan münaqişə səhifəsini bağlamağa hazır olduğunu dəfələrlə bəyan edib, bu məqsədlə bütün qonşu ölkələrin iştirakı ilə bölgədə inkişaf və əməkdaşlığı təmin edən gələcəyə baxışlarını ortaya qoyub.

Bəli, elə bu konstruktiv kontekstdə Azərbaycan tərəfindən bölgədəki bütün iqtisadi və nəqliyyat kommunikasiyalarının açılması ilə bağlı əməli addımlar atılır. Bu, Ermənistanda da düzgün qiymətləndirilməli, əməkdaşlıq üçün adekvat addım atılmalıdır. Əks təqdirdə ən çox uduzan və zərər görən tərəf elə Ermənistan özü olacaq.

**_M.HACIXANLI, "Xalq qəzeti"_**

Xalq qəzeti .- 2022.- 11 sentyabr.- S.4.